HƏCƏR

# CEHİZ PULU



♦ *Hekayə*

***Rəşad Məcidin "10 sentyabr" hekayəsinə***

Telefonun səsi evin sükutunu pozdu. Aslan gözlərini güclə açıb ekrana dikdi. Ad yox idi, nömrə tanış gəlsə də, yuxulu olduğu üçün ayırd edə bilmədi ki, kimdir:

- Aloo, - deyən siqaret çəkməkdən kallaşmış cod, xırıltılı səs otağa yayıldı.

- Ə, sən neyləmisən? Mənim evimi niyə yıxmısan? Saa nə pisliyim keçib? Pulunu vermişdim? Vermişdim.. . Torpağı danışmışdıııım? Danışmışdııım…

- Bir dayan görüm, kimdir axı? Səhər-səhər nə zəhləmi tökürsən, ə? Bədbaxtın biri, bədbaxt. Bismillah eləməmiş… Əəhh…

- Özünü tülkülüyə vurma. Tanımırsan guya? Tahirdi!..

- Nooolub? Niyə özünü öldürürsən? Neyləmişəm ?

- Bilmirsən, neyləmisən? De görüm, bu torpağı hardan gətiribsən? Saa deməmişdim, rəislə də, bələdiyyə ilə də danışmışam, get, dağdan gətir, doldur həyətə. Bu meyit sümüklərini hardan çıxarıbsan?

Telefon qulağında donub qaldı, boğazı quruyan Aslan nə deyəcəyini bilmədi, handan-hana:

- Yaxşıı, dayan görüm, noolub axı? Bir aydın danış. Nə meyit, nə sümük? - deyə ağlına gələn fikirdən bərk həyəcana düşdüyünü gizlətməyə çalışaraq, özünü bilməzliyə vurub soruşdu.

- Necə yəni nə sümük? Özün bilmirsən, nə sümük? Dur bu dəqiqə gəl bura, zibilini təmizlə. Tez gəl, bizimkilərin xəbəri olmasın. Anam bilsə, yüz il qala, bu evdə yaşamağıma razı olmaz. Heç özü də yaşamaz. Sən mənim ocağımı zibilləmisən, ayy…, - söyüş sıxılmış dişlərinə dəyib geri qayıtdı. Sonra Tahir hirslə, -Dur, gəl! Səni polisə verməmiş, gəl! - deyə bağırıb telefonu söndürdü.

Aslan çarpayının yanındakı stulun üstünə atdığı şalvarını qapıb geyinə-geyinə:

- Ə, bunun bir anqırmağına baax. Bədbaxt, qurumsaq. Gələcəm görüm, niyə boğazını cırırsan belə? - desə də, ürəyinə daman qorxu və şübhə içini gəmirirdi və elə geyinə-geyinə, - Asqırdıq bir addım qabağa düşək, ...on addım geri düşdük, - dedi.

Ona tərəf dönən arvadının pırpız saçına çaldığı ləçəyin içində gizlənmiş balaca başı kobra başı kimi yorğanın altından yuxarı dikəldi:

- Aslan, noolub? O kimiydi? Nə sümükdür, nə torpaqdır elə?

- Aaz, nə bilim? O günü demədim, bu it oğlu mənə pul vermişdi ki, dağ torpağı gətirim, doldurum xarabasına. Mən də gecə daşıdım, tökdüm...Gedim görüm, nə məsələdir?

- Bəs sümük nədi? Sümükdən danışırdız.

- Deyir, torpağın içində sümük var. Adam sümüyü.

Arvadı həyəcanla "hih" eliyib içini çəkdi:

- Sən torpağı hardan gətirmisən, düzünü de, - deyə gözlərini qırpa-qırpa ərinə baxdı.

- Az, hardan gətirəcəm? Ən münbit, gül kimi yerdən. Dedim, qara, qəşşəng torpaqdır, soxsun gözünə, nə əksə, bir qoyub, on götürəcək. Mən nə bilim, belə olacaq? - deyib cəld hamama keçdi.

Arvadı xalatını əyninə keçirib çəkələklərini şappıldada-şappıldada mətbəxə qaçdı. Çaydanı qazın üstünə qoyub elə mətbəxdəcə əl-üzünə su vurdu. Stolu hazırladı. Aslan içəri girib:

- Çay içməyəcəm. Gedim, bu işi çözüm. Fikrimə gələn işdirsə, çətin olacaq. Bu oğraş məni polisə verməklə hədələyirdi, - deyərək qapıdan çıxdı. Beş dəqiqə keçməmiş, küçədən onun köhnə "Mersedes"inin dığıltısı gəldi. Pəri pəncərədən baxanda qazı birdən artan maşın güllə kimi yerindən götürüldü. Uzaqdan baxana elə gələrdi ki, o da yiyəsi kimi yolu söyə-söyə gedir.

Aslan yol uzunu Tahirə nə cavab verəcəyini, etdiyinə necə haqq qazandıracağını fikirləşdi. Məsələ belə idi ki, ona pul verib həyətinə dağ torpağı tökdürmək istəyən Tahir torpağın yerini demiş, ekskavatorçunun da haqqını vermişdi. Səhəri günü köhnə erməni qəbiristanlığının yanından keçəndə bacısının əri Bayram:

- Buranın, bilirsən, nə gözəl torpağı var. Münbit. Bir ağaclara, kollara bax. Suvarılmır, baxılmır, ancaq yenə də yamyaşıldır. Bəlkə də, yüz ildən çoxdu əkilmir bu torpaqlar, - demişdi.

Bunu eşidəndə Aslan elə bil yuxudan ayıldı. Zəng vurub tanış ekskavatorçu ilə danışdı:

- O uzaqlıqda dağa getməkdənsə, bura yaxşıdır. Bir dünya yanacaq yandıracaqdım. Onun pulu qalar cibimdə. İki-üç gün əvəzinə bir gecəyə işi qurtararıq. Kim biləcək? Qəşşəng də torpaqdı. Tahir də səni tanımır, iş mənlikdir, -deyib qəbiristanlığı xəlvəti qazmaqdan ehtiyat edən ekskavatorçunu birtəhər yola gətirmişdi.

Erməni qəbiristanlığı şəhərə uzaq deyildi və burada təkcə ermənilər yox, sovet hökumətinin müxtəlif yerlərindən hərbi xidmətə göndərilmiş və bu kiçik sərhəd şəhərində vəfat etmiş hərbçilər, onların yaxınları da dəfn olunmuşdu. Ermənilərin azərbaycanlılara qarşı torpaq iddiaları və qırğınları başlayandan sonra tək-tük qalmış erməni ailələri şəhəri tərk edib getdilər. Bir neçə müddət sonra isə İrəvanda, azərbaycanlıların qədimdən yaşadığı digər yerlərdə ermənilərin qəbiristanlıqları dağıtdığı, məscidləri yandırıb uçurduğu, qədim tarixi abidələri məhv etdiyi barədə məlumatlar mətbuatda yayılmağa başladı. Ardıcıl verilən informasiyalardan qəzəblənmiş camaat bu qəbiristanlığına hücum çəkdi. Bu adamların əksəriyyətinin ata-babalarının, əzizlərinin qəbirləri Yerevan tərəfdə, Qərbi Azərbaycanda idi. Hökumət polisləri töküb onların qarşısını ala bildi. Düşmən qəbirlərini dağıtmaqla heç bir qisas ala bilməyəcəklərini başa düşən camaat sakitləşmiş, elə oradaca əsirlikdə qalan torpaqlarına və qəbiristanlıqlarda yatan əzizlərinə şivən qoparıb ağlamış, sonra evlərinə

dağılışmışdılar. Qəbiristanlıq da qəbirdə yatanların dirilərinin əməllərinin üz qarası kimi baxımsız vəziyyətdə qalmış, sonralar şəhərin hər yerində abadlıq işləri genişlənsə də, bura beləcə qalmış, kol-kos basmışdı.

…Aslan dünən bütün gecəni var gücü ilə işləyib səhərəcən Tahirin yenicə yaraşıqlı, ikimərtəbəli ev tikdirdiyi həyətinə keçmiş erməni qəbiristanlığından torpaq daşımışdı. Həyətin əvvəlki torpağını tamam qazıyıb o tərəfə tökdürən Tahir bağ-bağça həvəskarı idi. Anası da həmçinin. O, bu torpağı ən çox anası üçün tökdürmək istəyirdi. Neçə ildir, binanın altıncı mərtəbəsində yaşayan və torpaqda əlləşmək üçün sinov gedən anasının arzusunu yerinə yetirmək, oğlu müharibədə həlak olan qadını heç olmasa bununla ovundurmaq, başını qatmaq istəmişdi.

…Ərinin maşını gözdən itəndən sonra Pəri cəld telefona cumub böyük qaynına zəng vurdu:

- Məmmədhəsən, özünü yetir. Aslan birindən pul almışdı, gətirib həyətinə dağ torpağı töksün. Torpağın da içindən insan sümükləri çıxıb. Kişi: “Polisə verəcəm”, - deyirdi. Sən Allah, get, gör nə məsələdir? Qardaşın dəlinin biridir, bilirsən. Orda iş qəlizləşər, peşmançılıq olar, - dedi.

Telefonun o biri başından Məmmədhəsənin:

- Səhərin gözü açılmamış, böyürdən çıxdılar, - səsi gəldi.

Pəri heç nə deməyib dəstəyi asdı. Qaynayan çaydanın altını söndürüb çayı dəmlədi, otağa keçib deyinə-deyinə yır-yığış eləməyə başladı.

Aslan Tahirin evinə çatıb maşından düşdü. Səhər yağan yağış hələ asfalt tökülməyən küçədə gölməçələr əmələ gətirmiş, yer palçıq olmuşdu. O, darvazanı astaca açıb həyətə girdi. Axşam daşıyıb tökdüyü torpaq təpəciklərinə baxanda gözləri kəlləsinə çıxdı. Yağışda yuyulub təmizlənmiş və orda-burda ağaran bir neçə insan kəlləsi, bud, qol sümükləri gözə dəyirdi. Tahir bir kənarda durub siqaret çəkirdi. Səs eşidəndə boğulub qaralmış sifətini Aslana tərəf döndərib baxdı . Əvvəcə dinmədi, sonra:

- Sən Allah, de görüm, bu torpağı hardan gətirmisən? - deyə soruşdu.

- Gül kimi torpaqdır… Vallah, elə münbit, qara torpaqdır ki... Dedim, xeyirli olar...

- Hardan gətirmisən? - deyə Tahir hirsini güclə boğub fısıldadı.

Aslan udqunub qılıqlandı:

- Tahir, sən oranın ağaclarını, gül-çiçəyini görsəydin…

- Hardan gətirmisəən?! - deyə Tahir bağırdı.

- Ə, niyə qışqırırsan? Camaat eşidir. Erməni qəbiristanlığından gətirmişəm. Noolub? Düşmən kəlləsidir dəə... Onlar Xocalıda bizimkilərin başına nə oyun açdılar, bilmirsən?

Hirsindən Tahirin az qaldı ağzı əyilə. Yanağının bir tərəfi səyridi, nitqi batdı. Gözünü qıyıb Aslanın gözünün içinə elə baxdı ki, daş da bu baxışa dözməz, əriyərdi:

- Sən müharibədə döyüşmüsən, Qarabağ müharibəsində? - dedi.

- Yox, döyüşməmişəm, - Aslan bu sualı gözləmədiyi üçün çaşqın halda cavab verdi.

- Niyəə, hansı cəhənnəmdə idin? - deyə Tahir səbrini basıb mətləbi uzaqdan başladı.

- Rusetdə idim. İşləyirdim.

- Sən Rusetdə rus qızları ilə sülənəndə mən, bilirsən, harda idim? O döyüşlərin lap qızğın yerində. Üç dəfə yaralanmışam, - bunu deyə-deyə Tahir sinəsini açıb çiynində və köynəyini qaldırıb böyründə, sonra şalvarının balağını çəkərək ayağında güllələrin açdığı yaraların qırmızı, dərin və çal-çarpaz yerlərini

göstərdi, - qardaşım, iki əmoğlum, hər biri yüz sənin kimisinə dəyən dostlarım öldü o döyüşlərdə. Bildiiin?!

Aslanın sifəti allandı, büzüşdü Tahirin qabağında:

- İndi mən neyliyim?

- Deyirsən, Xocalının hayıfını al. Alacam Xocalının hayıfını. Geci-tezi var. Mən ala bilməsəm də, oğlanlarım, nəvələrim alacaq, amma alacaq, - sonra səsini bir az qısıb sanki öz-özünə, - Allah o qisası nəvələrimə qoymasın. Heç balalarıma da, - dedi və sonra, - bu dəqiqə get, ekskavator gətir, bu torpağın hamısını daşı, apar, tök gətirdiyin yerə, - deyə əlavə elədi.

Aslanın ürəyi üzüldü. Torpağı geri daşıya bilərdi, ancaq ekskavatorçunun pulunu özü verməliydi, həm də günün günorta çağı daşısa, görən olar, işi polisə düşərdi. Ona görə səsini qısıb yalvarmağa başladı:

- Tahir, sən Allah, qoy üzdəki sümükləri yığışdırım, bir kisədən-zaddan ver, doldurum içinə, aparım. Qalanını basdıraq, yerdə qalsın. Noolacaq? Vallah, yaxşı torpaqdı, elə...

- A kişi, hara basdırırsan? Nəyi basdırırsan? Erməni əkəcəm burda? Mənim həyətim gavur qəbiristanlığıdı? Apar, tök öz xarabana. Sən deyirdin, Xocalının hayıfını almaq lazımdır, - deyə Tahir nə qədər səbirli olmağa çalışsa da, səsini qaldırdı.

- Tahir, sən elə bilirsən, mən papaq altda yatan oğlanam? Mənim gizlində iki avtomatım var. “Kalaşnikov”. Müharibəni gözləyirəm. Elə dava başlayan kimi götürüb gedəcəm. Onda görərsən, qisası necə alarlar?

Bu söhbəti ünvanı ekskavatorçudan alıb qardaşının dalınca haya gələn Məmmədhəsən də eşidirdi. Bayaqdan səsini çıxarmadan, matdım-matdım onlara baxır, bir söz demirdi. Sonuncu sözləri eşidəndə astaca irəli gəlib Aslanı bir tərəfə çəkərək:

- Nə köpürsən? Sənin avtomatın-zadın hardadır? Müharibəyə gedənsən sən? - dedi.

- Əşşi, görmürsən? O köpür, mən də köpürəm. Bayaqdan başlayıb ki…

Onun sözünü Tahir kəsdi:

- Orda cuqquldaşmayın, - dedi, - get maşınını gətir, ekskavatorçunu da, bunları burdan daşı, apar.

- Bu nə iş idi, mən bədbaxt düşdüm? Tahir, mənim o pula ehtiyacım var. Qızımın toyu olacaq, cehiz pulunun üstünə qoymuşdum. Bilsəydim, belədir, vallah, heç ordan gətirməzdim. Həm də indi daşısam, görən olacaq. Başım ağrıyar. Heç olmasa, qoy axşam daşıyım, - deyə Aslan dilləndi.

- Mən neyləyim, deyirsən? Bu gün anam gəlib evə baxmaq istəyirdi. Birtəhər başını qataram, sonra gətirərəm. Axşam daşı, apar. Deyirdin, cehiz almaq istəyirsən. Eybi yox, bu dəfə də ekskavatorçunun pulunu verəcəm, ancaq o birini özün verəcəksən. Daha artıq danışmaq istəmirəm. Yeri, çıx get, - deyə Tahir söhbətin bitdiyini elan elədi.

Aslan başı ilə qardaşına işarə elədi və hər ikisi darvazadan küçəyə çıxdılar. O, yenə acığını “Mersedes”in üstünə tökdü.

Evə çatanda ailə artıq naharı eləyib bitirmişdi. Pəri divanda oturub dizinin üstünə qoyduğu sinidə per-pencər arıtlayırdı. Ərini görən kimi sinini bir tərəfə qoydu, ayağa qalxaraq irəli yeriyib sual dolu nəzərlərini ona dikdi.

- Nədi? Niyə qurudun? Dünənki işim oldu heç. O torpağı təzədən daşıyıb yerinə qaytarmalı, dağdan da torpaq gətirib kişinin həyətini doldurmalıyam. Get, o puldan bir az gətir görüm, - deyə Aslan arvadına çımxırdı.

- Niyə, nooldu, yenə işinin içindən qurd çıxdı? - deyə Pəri ciyiltili səsini başına atdı.

- Az, bəsdir, bədbaxtın biri bədbaxt, bu əsəbi vaxtımda məni bir də sən cin atına mindirmə. İşin içindən qurd çıxmayıb, insan sümüyü çıxıb, erməni sümüyü, - deyə Aslan bağıranda Pəri günəbaxan tumuna bənzər gözlərini bir az geniş açmağa çalışıb döyükdü:

- Necə yəni erməni sümüyü? Demək, torpağı qəbiristanlıqdan daşıyıb aparıbsan? Gör başımıza nə oyun açırsan? O kişi səni sağ buraxıb, hələ sevin. Camaatın həyətinə qəbiristanlıq torpağı tökərlər? Bəs o sümük yiyələrinin ruhu bizi rahat qoyar? Bu nə işdir tutmusan, Aslan? - deyə arvadı vaysındı.

- Az, kiri, kiri bir! Ay bədbaxt, mən nə bilim o qurumsaqların sür-sümüyü belə gec çürüyür.

Pərini narahat edən daha çox qızının xeyir işiydi, soruşdu:

- Yaxşı, bəs bu qızın cehizi necə olacaq? Aldığın pul o işləri təzədən görməyə yetəcək? Artıq qalacaq heç olmasa?

- Nə bilim. Baxaq görək. Xaçına lənət olmuşlardan kim xeyir görüb ki, mən də görəm.

- Aaa, camaatın xaçıynan nə işin var? İsa peyğəmbər "Quran"da var. Günahdır. Ağzını təmiz saxla. Hər nədir, itdir-qurddur, kimin sümüyüdür, özləri bilər. Qoyaydın, cəhənnəm olub yataydılar yerin altında. Nə işin vardı, onları qazıb çıxarırdın? - deyə Pəri onun səsinin yumşaldığını görüb öz səsini qaldırdı.

Aslan siqaretini cənginin gah bu, gah da o biri tərəfə keçirib arvadının ağzını əydi:

- "Quran"da var... "Quran"da var... Məni görüb yenə mollalığın tutmasın. Görmüşük o "Quran" oxuyanların başında duranları, - sonra qardaşına sarı dönərək, - Ə, sən o ili demirdiin, o mollabaşının bağ evini remont eləmişdiz. Fəhlələrə bir diplomat çanta dolusu bir manatlıq zəhmət haqqı göndərmişdi.

Pəri məsələni anlamadı. Döyükə-döyükə gah ərinə, gah da qaynına baxdı.

- Niyə gözlərini döyürsən? O "Quran" oxuyan əclaf camaatın nəzir qutularına saldığı pulun hamısının dalına keçir, bildiiin? Lazım olanda da utanmadan beləcə xırıd eləyir. Fəhlələrin zəhmət haqqını o puldan veribmiş.

Pəri başını bulayıb:

- Heç gör dəxli var? Mən nə deyirəm, bu nə deyir? - deyərək otaqdan çıxdı. Qapının ağzında pillələri çətinliklə qalxan qayınanasının qolundan tutub içəri ötürdü. Anasını görən Aslan qardaşına:

- Ə, bu arvadı bir-iki ay da sən apar saxla daa. Elə təkcə məni doğmayıb ki? Sənin də anandır daa. Yavərdən başqa heç biriniz yaxına durmursuz. Böyük qızı yayda gələndə bir kilo gilas alar, qışda da bir kilo alma. Gətirdiyini də yuyub qoyar qabaqlarına, əri, uşaqları ilə yeyib durarlar ayağa. Gedəndə də əlinə gələni çantasına doldurub aparar. Az qalır altımızdan palazımızı da çəkə, - dedi.

Məmmədhəsən anası ilə salamlaşıb qapıya yönəldi və:

- Mənim arvadım işləyir, onu kim saxlayacaq? - dedi.

O, bayaqdan bir kənarda ayaqüstə durub evinə qaçmağa bəhanə, fürsət gözləyirdi. Qardaşının cavabını verən kimi sivişib qapıdan çıxdı, barmağının ucunda tullana -tullana pillələri endi.

Ana yazıq-yazıq dilləndi:

- A bala, niyə elə deyirsən? Qızın gözü ölənəcən dədəsi evində qalar.

- Sənin qızının gözü dədəsi evində yox, dünya malındadır. Acgözdür, acgöz. Dünyanı da yesə, doymaz. O biri qızın niyə o cür eləmir bəs?

Bir azdan qoltuğunda bir aşsüzən pomidor-xiyar içəri girən Pəri tələsə-tələsə çayını içən ərinə:

- Bu qızın cehizi mənə rahatlıq vermir. Kimdən əskikdir? Dədəsi sağ, anası sağ. Düz-əməlli bir şey verməsək, sıxılacaq uşaq. Yazıqdır. Vaxtında gərək fikir-

ləşəydin. Getdin, Rusetdə neçə il işlədin, qazandığın pulu yığmadın, xərclədin Nataşalara, əlin boş, cibin yaş qayıtdın, gəldin. Olanda halay-halay, olmayanda halım qolay. Baax, indi də qalmışıq qarnımızı qucaqlaya-qucaqlaya, - dedi.

Aslan həmişəki kimi:

- Yenə başladı daa. Az, sən bunu neçə dəfə deyəssən? Bəsdir daa, taa oldu, getdi. Qaldı Rusetdə. Mənim zəhləmi az tök. Pah atonnan, - deyib, bir gözü qızının otağında, səsini qısaraq qabaqdangəlmişlik etməyə çalışdı.

- Deyəcəm… Ölənə qədər deyəcəm. Elə bilirsən, yadımdan çıxıb? - deyə Pəri qəhərləndi.

- Yaxşı taa. Bir şey fikirləşərəm. Gördüm düzəlmir, o dınqılı qoduğa zəng vuracam. Taa neyliyim? - deyən Aslan həmişəki kimi stəkanı aparıb taqqıltı ilə çanağın içinə qoydu, nəlbəki stolun üstündə qaldı.

Pəri:

- Onun da zəhləsini tökmüşük. Hamı cumur onun üstünə. Bir xeyrimiz də dəymir, - deyəndə Aslan "huff" eləyib gündən qapqara qaralmış sifətində bir an oyuğunda durmayan cin gözlərini bərəldib arvadına:

- Niyə tökürük zəhləsini? Onun nə vecinədir? Oturur o fakısdır-makısdır, nədir, o aparatın qabağındaa, barmağını basır "knopka"ya. Budu haa, beş-on gündən sonra diplomat dolu dollar gəlir hüzuruna. Taa mənim kimi… Budu eey, beş qəpik qazanmaq istədik, içindən bir hoqqa çıxdı, - deyib otaqdan çıxmaq istəyəndə arvadı yenə yavaşca ciyildədi:

- Gəl bu dəfə ona deməyək. Məmmədhəsəndən borc alaq. Yavaş-yavaş qaytararıq, - deyib başını aşağı salaraq özünü məşğul kimi göstərdi. Ərinin nə deyəcəyini əvvəldən təxmin etsə də, dediyini demişdi. Qapının dəstəyini buraxmayan Aslan geri dönüb:

- Düzəlməyən işə niyə "Amin" deyirsən? Bilirsən ki, onlar adama qışda buz da verməzlər. Özün demədin, keçən ay nənəm o istəkli oğlunun - Yavərin aldığı bahalı yaylığı, jaketi geyib gedib onlara, əynindən çıxarıb, nimdaş, köhnə paltar geyindirib üzü bəri yola salıblar nənəmi? Yazıq arvadın hərdən huşu gedir, bunlar da onun xəstəliyindən istifadə eləyib başına belə oyun açırlar, - dedi və qapını bərk örtərək tappatupla pillələri endi.

Pəri stolun üstündə qalmış nəlbəkini götürüb həmişəki kimi:

- Ha deyirəm, bu stəkanı ya nəlbəki ilə birlikdə götür qoy ora, ya da heç götürmə. Yenə bildiyini o cinli dədəsinə vermir, - deyib yumağa başladı.

Yarım saat keçməmiş, həyətdən qızının həyəcanlı qışqırtısı gəldi:

- Mamaa, ay mama, çıx, gör bu uşaq nə günə qalıb?

Pəri güllə kimi evdən çıxdı. Oğlu Raufu qucağına alan qonşuları pilləkənin qabağında dayanmışdılar. Qonşunun biri iki əli ilə bərk-bərk uşağın topuğundan bir az yuxarını tutub saxlamışdı. Pərinin ürəyi qopdu. Aşağı qaçıb oğlunu qucaqladı:

- Oyy, anan qurban, bala, sənə nooldu? Bunu kim elədi? - deyib ağlamağa başladı.

Qonşu:

- Futbol oynayırdular. Yıxılıb, ayağı sınıb, - dedi və evə sarı boylandı, - təcili yardım çağırın, aparıb sarısınlar. Narahat olma, Pəri bacı, bizimkininki də sınmışdı, bir aya sağaldı, durdu, qaçdı - qonşular uşağı ehtiyatla evə qaldırdılar. Raufu divana uzadıb təcili yardım çağırdılar. Pəri mobil telefonla ərinə zəng vurdu. Aslanın: "Həəə" - səsi gələn kimi o:

- Hə, dincəldin? Pürçüklü işin axırı belə olar. Ala, budu eyy, bu da sənə düşmən kəlləsi, düşmən sümüyü. Di get, - dedi.

Xəttin o biri başında Aslan bağırdı:

- Az, sənə min dəfə demişəm, ay bədbaxt, mənimlə bayquş kimi danışma! Nəpək köpəyoğlunun qızı, sözünü adam kimi de!

- Ağzını dağıtma, sənə dedimmi ki, bu sümüklərin bir xatası çıxacaq. Rauf yıxılıb, ayağı sınıb. Həkim çağırmışıq. İndi gələcəklər, - deyəndə Pəri ağlamsındı.

Aslan heç nə demədən telefonu söndürdü. Təcili yardım maşını ilə onun maşını qapıda eyni vaxtda dayandı. Aslan həkimlərdən qabaq qaçıb özünü evə saldı. Dolmuş gözlərini uşağın üzünə dikib:

- Atan qurban, necə oldu bu? Kim yıxdı səni? Çox ağrıyır? - deyə dalbadal cavabsız sualları yağdırdı. Həkimlər uşağı müayinə etdilər, ayağının sındığını təsdiqləyib xəstəxanaya apardılar. Ata-ana da həkimlərlə getdi və günortadan sonra ayağı gipslə sarınmış Raufu evə gətirdilər.

Aslan ekskavatorçunu çağırıb pulunu verdi, həmin gecəni səhərəcən torpağı Tahirin həyətindən daşıyıb qəbiristanlığa tökdü. İşi səhərəyaxın bitirdilər. Yorulub əldən düşmüşdü, evə gəlib arvadına tapşırdı ki, saat onda onu oyatsın və daş kimi yuxuya getdi. Çox yorğun olanda saatı qurub yanına qoysa da, oyana bilmirdi.

Səhər yerindən duranda hələ də yorğunluğu çıxmamışdı. Nahardan sonra zəng vurub dağa yaxın kənddə yaşayan tanış ekskavatorçu ilə işi danışdı, zəhmət haqqını uzun mübahisədən sonra razılaşıb evdən çıxdı.

Günortaya yaxın ilk torpaq dolu maşını gətirərkən Tahirin darvazası ağzında dayanmış iri çənli su maşınını görəndə duruxdu. İçəri girəndə gördüklərindən əməlli-başlı pərt oldu, onu tər basdı. Həyətin aşağı tərəfində divarın altında iri bir dəlik açılmışdı, bir neçə fəhlə suyu güclü təzyiqlə vurub bütün həyəti, divarları yuyur, çirkli suyu açılmış dəlikdən o tərəfə axıdırdılar. Tahir onlara göstəriş verir, lap azca da olsa, qəbiristanlıq torpağının qalmaması üçün hər yeri diqqətlə nəzərdən keçirirdi. Aslan istədi yenə nəsə desin, ancaq onun üzünə baxanda fikrindən vaz keçib gözləməyə başladı.

- Gətir, o biri qıraqdan tök, get, sən daha gözləmə, - deyə Tahir onun üzünə baxmadan dilləndi.

…Aslan sonuncu maşının torpağını boşaltdıqdan sonra həyətdə torpağı yayan traktorçuya nəzarət edən Tahirin yanına gəlib:

- Hə, indi razı qaldın, qardaş? Mən ölüm, incimə. Day neyləyək? İşdir, adam başına gəlir. Vallah, o torpağı yaxşı bilib gətirmişdim. Belə alındı. Günahkaram. Nə vaxt lazım olsam, qulluğunda hazıram, - deyə irişib Tahirin üzünə baxdı.

Tahir ironiya ilə:

- Yaxşı, daha səni əldən qoymaram, nə işim olsa, sənlikdir, - dedi və bığaltı gülümsəməyini də saxlaya bilmədi. Bu gülümsəmə Aslanın gözündən qaçmadı. Dərindən köksünü ötürüb yorğun olsa da, rahatlanmış və yüngülləşmiş kimi iti addımlarla darvazaya sarı getdi, ora çatanda geri dönüb:

- Tahir, mən ölüm, aramızda qalsın, yaxşıı. Evində də sağlıqla otur. Balalarının xeyir işlərini eləyəsən, - dedi, sonra baş barmağını dik yuxarı tutub, - vallah, zor oğulsan, - deyərək darvazadan çıxıb “KAMAZ”ına mindi.

Aslan evə gələn kimi arvadı dil boğaza qoymadan danışdı:

- Bə heç demirsən, daşıyıb qəbiristanlığa tökdüyün torpağın başına nə gəldi?

Aslan yorğun ayaqlarını zorla sürüyə-sürüyə mətbəxə keçib divanda uzandı:

- Qoy bir nəfəsimi dərim, - dedi, - Tahirin işini bitirəndən sonra gedib sümükləri basdıracaqdım. Noolub ki?

- Camaat xəbər tutub, hamı düşüb vəlvələyə. Biri deyir, ermənilər həmişəki kimi gəlib xəlvəti qazıb, qızıl çıxarıb aparıblar. Biri deyir, onların təxribatıdır, qəs-

dən qazıblar ki, xarici ölkədən jurnalist göndərib videosunu, şəklini çəkdirsinlər, bizim milləti vəhşi kimi qələmə versinlər… Nə bilim, hərənin ağzından bir avaz gəlirdi.

Aslan dilini güclə döndərib:

- Hə, axırı, de, axırı nooldu? - soruşdu.

- Heç nə. Marusa varıdı haa, uşaqları köçüb getdi Rusetə, özü getmədi, dedi, mən burasız yaşaya bilmərəm, bax, o Marusa bir neçə rus da tapıb, getdilər qəbiristanlığa sümükləri basdırmağa. Bizimkilərdən də Səməd kişi, Allahverdi, bir də Xanhüseyn gedib onlara kömək eləyib. Hamısını basdırıblar. Heç kimin xəbəri olmadı bizdən. Canımız qurtardı, - deyə arvadı arxayınlıqla nəfəs aldı. - Həə, bir də bir-iki saat əvvəl Yavər zəng vurmuşdu, sabah gəlir. Deyir, gələcəm, üç-dörd gün qalıb qayıdacam.

- Gəlsin, çox şükür, dədəsinin evidir dəə, neyliyim?

- Nə bilim, vallah, deyirəm, bəlkə, elə Allah özü rast salıb, bu qızın cehizinə görə. Deyirdin axı ona deyəcəksən, - deyən Pəri çəkinə-çəkinə ərinin üzünə baxdı.

Danışmağa heyi olmayan Aslan gözüyumulu güclə:

- Baxarıq, - deyə bildi, xorultusu evi başına götürdü.

Səhər saat doqquza yaxın Aslan səsə oyandı. Kimsə qapınıərklə, dalbadal, möhkəm döyürdü. O, qapını açanda üz-gözündən sevinc yağan Yavəri qarşısında gördü. Qardaşını bərk-bərk qucaqlayıb öpən Yavər tez evə keçib boş otağa çağırdı:

- Nənə, ay nənəə, hardasan? - sonra qardaşına, - Aslan, deyəsən, axı bu heç durmayıb yuxudan, - dedi.

Aslan:

- Heç birimiz durmamışıq. Uşaqlar da yatır. Keç o yuxarı otağa, ordadır nənəm, - dedi.

Yavər otağa keçdi. Çarpayıda büzüşüb yatmış anasının yanına girdi, onu qucaqlayıb burnunu sinəsinə, boyun-boğazına sürtüb iyləməyə başladı. Anası gözünü açıb oğlunu görən kimi:

- Oyy, nənən sənə qurban. Nə yaxşı, gəldin. Axşam gəlin dedi, elə gözləyirdim ki səni. Qoy durum, geyinim.

- Yox, nənə, qoy bir az belə uzanım. Sənin qoxundan ötrü darıxmışam, - deyib anasını qucaqladı, üzünü onun üzünə söykəyib köksünü ötürdü.

Günorta yemək zamanı Pəri ərinin qəbiristanlıq torpağını daşımasından söz saldı. Yavər uğunub getdi. Ona baxıb ev adamları da qəhqəhə çəkib bir-birinə qoşuldular. Onların gülməklərini görən Aslan indiyəcən ona bir belə başağrısı verən məsələnin gülüşə səbəb olacağıını gözləmədiyi üçün azca duruxdu, ancaq sonra o da gülənlərə qoşuldu.

Yavər Pəriyə göz vuraraq gülə-gülə:

- Sən belə dodurqayı iş tutmazdın axı, heç səndən çıxmayan əməldir, - deyəndə Aslan:

- Əşşi, nə əməl? Bu qızın cehizindən ötrü ləlik olmuşam. Pul da çatışmır, - dedi.

Yavər cibindən bir dəstə yüz dollarlıq çıxarıb qardaşına uzatdı:

- Al bunu, götür, çatmasa, deyərsən, yenə göndərərəm. Axı, deyəsən, toya çox var. Niyə belə tələsirsiniz? Qızın nişanlısı gəlib Rusiyadan?

Aslan pulu almadı, başı ilə tumbaya işarə edib:

- Qoy ora, - dedi, sonra köksünü ötürüb, - hanı çox qalıb ey? Bir aydan sonra toydur. Mebellər indidən alınıb oğlan evinə daşınmalıdır. Gədə də hələ oralardadır. Deyirlər, sabaha, birigünə gələcək.

- Yaxşı, toyda onsuz da gələsiyik. Mən nənəmi götürüb aparacam. Uşaqlar nənəmdən muğayat olarlar. Mən arvadla gəlib qayıdaram.

Aslan etinasız:

- Özün bil. Səni hamımızdan çox istəyir. Apar, ancaq yenə gedəndən bir-iki həftə sonra darıxacaq, zəhlənizi tökəcək ki, məni evimə aparın. Arvad bura öyrəşib, - dedi.

Üç gün sonra Yavər Bakıya - evinə qayıtmaq üçün yola hazırlaşanda Aslanın Pəriyə xısın-xısın dediyi sözləri eşitdi:

- Az, nənəmin pensiya kartını götürdün? Birdən yadından çıxar ha. Onsuz da orda ona pul lazım olmur. Oğlu hər şeyini eliyəcək.

Yavər heç nə demədi. Qardaşı və ailəsi ilə görüşdü, anasını götürüb evdən çıxdı.

Səhəri gün Aslanın qudaları zəng vurub:

- Axşam gələcəyik. Heç nə də lazım deyil, yemək-içmək hazırlığı görməyin. Başqa adam olmasın, elə özümüz. İki kəlmə sözümüz var, deyib çıxacağıq, - dedilər.

Aslanın dalağı sancdı. Nə vaxtdır, ürəyinə daman qorxu və şübhə indi lap çoxaldı. Çək-çevir eləmək istədisə də, qudaları söhbəti yarımçıq kəsib telefonu söndürdülər. Axşam qızının nişanlısının ata - anası, əmisi və iki xalası gəldi. Üzlərindən heç toy söhbəti eləyənə oxşamırdılar. Suçlu adamlar kimi büzüşüb dayanmışdılar. Sözə oğlanın atası başladı:

- Vallah, bilmirik nə deyək, necə deyək? Nə vaxtdır, şübhələnirdik. Bu gədə bizi camaat içində biabır elədi. Sizin yanınızda da dilimiz gödək oldu. O xarabada - Rusetdə evlənibmiş. Getdi toy üçün pul qazanmağa, başından yekə qələt elədi. Bu yaxına qədər gizlədib bizdən. İki gün əvvəl təzəcə doğulmuş uşağının şəklini göndərdi. Deyir, daha gəlməyəcəm. Qıza deyin, məni gözləməsin. Qalmışıq pis vəziyyətdə. Neçə gündür, evdə ağlaşmadır. Daha ondan bizə oğul olmaz.

Aslan qapqara qaraldı. Əlini ürəyinin üstünə qoyub başını sinəsinə əydi, dərindən nəfəs aldı. Pəri qaçıb su, dərman gətirdi. Aslan əlinin arxası ilə dərmanı o tərəfə itələyib:

- Durun, şey-şüylərinizi də götürün, cəhənnəm olun burden… Mənim gül kimi balamı bədbaxt elədiz. Sizin o oğraş gədə əlimə keçsə, vayını verəcəm. Rədd olun burdan, siz nəsiniz ki, küçüyünüz də nə ola? Bilirəm ki, çoxdan xəbəriniz varmış. Nə vaxtdır şübhələnirdizsə, niyə demirdiz? - dedi və o biri otağa keçərək qızının nişan şeylərini gətirib onların üstünə tulladı. Qudalar bir-birinə dəyərək başlarına fırıldayan əşyalardan qoruna-qoruna qapıdan güllə kimi çıxdılar.

…Yataq otağından qızın xısın-xısın ağlamaq səsi gəlirdi. Pəri gah Aslanın, gah da qızının üstünə qaçırdı. Bir azdan özünə gələn Aslan qızını çağırıb yanında oturtdu, üzündən öpüb saçını sığalladı. Onun çənəsindən tutub başını qaldıraraq gözlərinin içinə baxıb:

- Ağlamayacaqsan, eşitdin, ağlamaq qurtardı. Ürəyimə dammışdı, hiss eləyirdim ki, belə olacaq. Qoy cəhənnəm olsunlar. Onlar itirdi, sən yox. Mən o rusyet arvadlarının dabbaqda gönünə bələdəm. Bir azdan o dəyyus gədə baş-gözünə döyəcək, bədəni su ilanı iyi verən o qızlardan çiyrənəcək. Sən sevin ki, o cür alçaqdan qurtulmusan. Gül kimi qızsan. Həyatın hələ qabaqdadır. Bilirəm ki, hər şey yaxşı olacaq, inan, yaxşı olacaq. Atan hələ ölməyib ki, sən fikir eləyəsən, - dedi.

Atasının gözlərinə baxan qız ah çəkib gülümsədi. O ahla birgə sanki bütün ağırlığı, kədəri içini tərk edib getdi.

***9 avqust 2019-cu il***